# Məktəb riyaziyyat kursunda iş formaları

**Samirə Mahmudova**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
**E-mail:** rufatbyrmv@gmail.com

**Rəyçilər:** ped.ü.e.d., prof. A.S. Adıgözəlov,
dos. A.Ə.Sadıqova

**Açar sözlər:** kollektiv, qrup, cüt, tədqiqat, müzakirə, iş forması, təşkil
**Ключевые слова:** коллектив, группа, пара, исследование, обсуждение, форма работы, организация
**Key words:** team, group, couple, research, discussion, form of work, organization

Fəal təlim metodları üzərində qurulan məşğələ ənənəvi məşğələlərdən fərqlənir. Bu məşğələlər uşaqların sərbəst şəraitdə fəaliyyət göstərməsinə imkan yaradır və bu zaman onlar özlərinin bütün bilik, bacarıq və istedadlarını nümayiş etdirə bilmək imkanı əldə edirlər. Fəal təlim məktəbəqədər yaşlı uşaqların inkişaf etdirilməsi üçün ən yaxşı texnologiyadır. Bu, o deməkdir ki, uşaqlar təlim prosesində passiv deyil, konkret materiallarla və əhatəsində olan insanlarla fəal, qarşılıqlı ünsiyyətdə olurlar.

İş formaları. İş formaları dedikdə, fərdi, cütlərlə, qruplarla və kollektiv iş nəzərdə tutulur.

Fərdi iş uşaqların potensial imkanlarının müəyyənləşdirilməsi və onların müstəqil fəaliyyət göstərməsi üçün imkan yaradır.

Cütlərlə iş zamanı uşaqların hər hansı problemin həllində biri-birinə kömək göstərmələrinə, əməkdaşlıq etmələrinə, bir-birlərinin qarşısında öz məsuliyyətlərini dərk etmələrinə imkan yaranır.

Qruplarla iş zamanı uşaqlar kiçik qruplarda birləşir, işin gedişində əməkdaşlıq və müxtəlif problemləri bir yerdə həll etməyə cəlb olunurlar. Bu zaman uşaqlar müstəqil fikir söyləmək, digərlərini dinləmək imkanı əldə edirlər.

Kollektiv iş zamanı kollektivdə işləmək, birgə fəaliyyət göstərmək və kommunikativ bacarıqların inkişafı təmin edilir. Bəzən fəal təlimin iş formaları ilə metodları qarışıdırılır.

Bir çoxları qrup iş formasını yeni təlim metodu kimi başa düşür. Fəal təlim zamanı daha çox istifadə olunan, qrup işi formasıdır. Bu iş forması şagirdlərə problemin birgə həll edilməsini, bir birinin fikrinə hörmətlə yanaşmağı, müstəqil öyrənməyi, sərbəst fikir söyləmək öyrədir. Ənənəvi dərslərdə psixoloji tipindən asılı olaraq dərsi bildiyi halda, sinif qarşısına çıxanda çaşıb qalır, cavab verə bilmirlər. Nəticədə dərsin vaxtı gedir, şagird isə mənəvi psixoloji zədə alır. Fəal təlimdə bu cür fəsadlar olmur. Yalnız işgüzar səs-küyün olması müəyyən narahatçılıq yaradır. Müəlliminin pedaqoji ustalığı özünün göstərərsə, bu problemlər aradan qalxır. Qrup işini müxtəlif varinatlara ayırmaq olar: 1.Bütün qruplar ümumi mövzu ətrafında müxtəlif tədris materialı ilə işləyirlər; 2. Bütün qruplar eyni vaxtda bir tədris materialı üzərində işləyirlər; 3. Eyni material üzərinə qruplar növbə ilə işləyirlər.

Qrupda iş şagirdləri problemin birgə həll edilməsinə öyrədir hər bir kəsə fikrini sərbəst söyləmək və digərləri tərəfindən dinlənilmək imkanı yaradır. Bu iş forması digər insanların mövqelərinə hörmətlə yanaşmağı öyrədir, hər bir şagirdin təlim prosesinə cəlb edilməsini təmin edir. Bütün uşaqlar öz imkanlarını nümayiş etdirməyə şərait yaradır. Şəxsi inkişafları üçün imkanı təmin edir. Qrupda iş və müstəqil öyrənmə qabiliyyətlərinin inkişaf etdirilməsinə, təlimin fərdiləşdiləşdirilməsinə imkan yaradır. Və tam mənada şəxsiyyət kimi hiss etməsinə

imkan verir. Müəllim aşağıdakı prinsiplərə riayət etməlidir: İşin təşkilini dəqiq fikirləşməli; Qrup işinin faydalarını şagirdlərə başa salmalı; Qrup işinin məqsədlərini tam təsəvvür etməli; İş üçün lazım olan materialları əvvəlcədən hazırlamalı; Qrupda iş qaydalarına riayət edilməsinə nəzarət etməlidir.

Müəllim sinfi qruplara bölərkən, hər qrupda 4 və ya 6 nəfər şagirdin olmasını təmin etməlidir.

Qrupların sayı isə 4-5 olmalıdır. Qrup tərkibini müəllim müəyyən etməlidir. Əvvəlcədən şagirdləri qruplara necə böləcəyini planlaşdırmalıdır. Bütün məsələlər üzrə diferensiallaşdırılmış qruplar təşkil etmək olar. Qrupları təşkil edərkən, "zəif" və "güclü", "yaxşı" və "pis" qrupların yaranmasına imkan verməmək, dostları ayırmaq prinsipinə riayət etmək vacibdir. Müəllim imkan daxilində tez-tez qrupların tərkibini dəyişməyə çalışmalıdır. Şagirdlərin həmişə eyni tərkibdə işləmələrinə yol verməməlidir. Qruplarda işi necə aparmalı?

1. Şagirdləri 4-6 qrupa bölürük. (Hər qrupda 4-6 nəfər olmaq şərtilə)
2. Qruplar ayrı-ayrı masaların arxasında əyləşirlər.
3. Müəllim müzakirə olunan mövzu ilə əlaqədar bir və ya iki sual (tapşırıq) qoyur, qrupunun işinin nəticələrinin nümayişi üsullarını aydınlaşdırır, həmçinin işin görülməsi üçün vaxt müəyyən edir.
4. Şagirdlər gördükləri işi təqdim etmək üçün öz aralarında, bir nəfəri seçirlər, nəticə qeyd və təqdim edilir.
5. Müəllim qrupun işinin gedişini müşahidə edir, onun qərarının düzgün qəbul olunduğuna əmin olur, suallara cavab verir, iştirakçıların onun köməyinə ehtiyacları varsa, əlavə təlimatlar verir.
6. Verilmiş vaxt bitdikdən sonra, müəllim işi dayandırır və məruzəçilərdən nəticələri bildirməyi xahiş edir.
7. Müəllim ümumi diskussiyanı idarə edir, qrupların işinin yekunlarını tutuşdurur və ümumiləşdirir və s.

**Məqalənin aktuallığı.** Şagirdlərin məntiqi təfəkkürü və yaradıcı fəaliyyətinin inkişafında kollektiv, qrup və ya cütlərlə təşkil olunan işin rolu böyükdür

**Məqalənin elmi yeniliyi.** Fərqli iş üsullarından istifadə şagirdlərin dərs prosesində daha fəal iştirakını, müzakirə və tədqiqat bacarıqlarını inkişaf etdirmək üçün müstəsna əhəmiyyətə malikdir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Riyaziyyat dərslərinin təşkili zamanı fərqli iş formalarından istifadə şagirdlərdə yeni bilik, bacarıq və ideyaların yaranmasına təkan verir.

## Ədəbiyyat

1. Adıgözəlov A.S. Məktəbdə riyaziyyat təliminin nəzəri əsasları. Bakı, 2018.
2. Adıgözəlov A.S. Orta məktəbdə riyaziyyatın tədrisi metodikası. Bakı, 2009.
3. Tahirov B.Ö, Namazov F.M, Əfəndi S.N, Qasımov E.A, Abdullayeva Q.Z. Riyaziyyatın tədrisi üsulları. Bakı, 2017.
4. Tahirov B.Ö, Namazov F.M, Əfəndi S.N, Qasımov E.A, Abdullayeva Q. Məktəb riyaziyyat kursunun elmi əsasları. Bakı, 2017.

**С. Махмудова**

## Формы работы на школьном курсе математики

### Резюме

Статья посвящена организации работы с учениками на школьном курсе математики. Исследовано влияние работы с группами и парами на организацию урока. Курс фокусируется на различиях между групповым, двойным и индивидуальным участием студентов. Рассматривается роль обсуждения, исследований и сотрудничества в учебном процессе.

**S. Mahmudova**

## Forms of work on the school course of mathematics

### Summary

The article is devoted to the organization of work with students in the school course of mathematics. The influence of working with groups and couples on the organization of the lesson. The course focuses on the differences between group, couple and individual student participation. The role of discussion, research and cooperation in the educational process is considered.

**Redaksiyaya daxil olub:** 21.11.2018